

Azərbaycan Respublikası
İqtisadi İslahatların Təhlili və
Kommunikasiya Mərkəzi

# İXRAC İCMALI

Mart 2024

www.ereforms.gov.az
info@ereforms.gov.az

## AZƏRBAYCANIN ENERJİ RESURSLARINA OLAN TƏLƏBATI İLDƏN-İLƏ ARTIR VƏ ARTACAQ.

Azərbaycan qazı Gürcüstan vasitəsilə bir neçə ölkəyə ixrac edilir. Ümumiyyətlə, Azərbaycan qazını alan ölkələrin sayı 8-ə çatıb və bu, son deyil. Yaxın gələcəkdə bu ölkələrin sayı artacaq və Azərbaycanın enerji resurslarına olan tələbatı ildən-ilə artır və artacaq. Biz dünya bazarlarının xüsusiyyətlərini yaxşı bilirik, mən dünya enerji bazarlarını nəzərdə tuturam. Yaxşı bilirik ki, Avropa qitəsində Azərbaycan qazına tələbat ildən-ilə artacaq.



**Azərbaycan Respublikasının Prezidenti cənab İLHAM ƏLİYEVİN Gürcüstan Baş naziri ilə 16 mart 2024-cü il tarixində keçirilən mətbuat konfransındakı bəyanatından**

İXRAC İCMALI 2024 mart

# MÜNDƏRİCAT


Qeyri-neft sektoru üzrə ixraca dair məlumat — səh. 3

Qeyri-neft sektoru üzrə əsas ixracatçı subyektlərin reytinqi — səh. 14

Azərbaycan Respublikasının Kosmik Agentliyinə (Azərkosmos) aid xidmət ixracı haqqında məlumat — səh. 17

Qeyri-rezidentlər tərəfindən aparılan bank əməliyyatları haqqında məlumat — səh. 19

“Bir Pəncərə” İxraca Dəstək Mərkəzindən qeyri-neft ixracı haqqında məlumat — səh. 21

# 1

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ İXRACA DAİR MƏLUMAT

Azərbaycan Respublikası İqtisadi İslahatların
Təhlili və Kommunikasiya Mərkəzi

## 2024-cü ilin yanvar-fevral ayları ərzində 4,8 milyard ABŞ dolları dəyərində mal ixrac olunmuşdur

## Cari ilin yanvar-fevral aylarında qeyri-neft sektoru üzrə ixrac 455 milyon ABŞ dolları təşkil etmişdir

2024-cü ilin yanvar-fevral ayları ərzində Azərbaycanın ümumi ixracı **4,8 milyard** ABŞ dolları, qeyri-neft sektoru üzrə ixrac isə **455 milyon** ABŞ dolları təşkil edib. 2024-cü ilin yanvar-fevral ayları ərzində yeyinti məhsulları üzrə ixrac **137,1 milyon** ABŞ dollarına bərabər olub.

2024-cü ilin 2 ayı ərzində qara metalların ixracı 46,4%, bitki və heyvan mənşəli piylər və yağların ixracı 29,7%, pambıq ixracı 29,3%, meyvə- tərəvəz ixracı isə 24,6% artıb.

2024-cü ilin yanvar-fevral ayları ərzində aqrar və aqrar-sənaye məhsulları üzrə birgə ixracın statistik dəyəri **16,9%** artaraq **145,9 milyon** ABŞ dolları təşkil edib. Qeyri-neft/qaz ixracının tərkib hissəsində əhəmiyyətli yer tutan aqrar-sənaye məhsullarının yaratdığı dəyər **36,6 milyon** ABŞ dolları təşkil edib.

2024-cü ilin yanvar-fevral ayları ərzində ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında elektrik

enerjisi (**34,9 milyon ABŞ** dolları) birinci olub. Bu siyahıda pambıq mahlıcı (**33,5 milyon ABŞ** dolları) ikinci, pomidor (tomat) (**30 milyon ABŞ** dolları) isə üçüncü yerdə qərarlaşıb.

2024-cü ilin yanvar-fevral ayları ərzində Rusiya Federasiyasına **154,4 milyon ABŞ** dolları, Türkiyəyə **97,3 milyon ABŞ** dolları, Gürcüstana **42,9 milyon ABŞ** dolları, Ukraynaya **18,2 milyon ABŞ** dolları, Qırğızıstana isə **18,2 milyon ABŞ** dolları dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunub.

Cari ilin fevral ayının qeyri-neft ixracı **233 milyon ABŞ** dolları olub. Yeyinti məhsulları üzrə ixrac **25%** artımla **66,7 milyon ABŞ** dolları, qeyri-yeyinti məhsulları üzrə ixrac isə **166,3 milyon ABŞ** dolları təşkil edib.

2024-cü ilin fevral ayında qeyri-neft sektoruna aid ən çox mal ixrac edilən ölkələrin siyahısında Rusiya Federasiyası (**78,8 milyon ABŞ** dolları) birinciliyə yüksəlib. Bu siyahıda Türkiyə (**49,7 milyon ABŞ** dolları) ikinci və Gürcüstan (**17,8 milyon ABŞ** dolları) üçüncü olub.

2024-cü ilin fevral ayında ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında pambıq mahlıcı (**23 milyon ABŞ** dolları) birinci, pomidor (tomat) (**13,4 milyon ABŞ** dolları) ikinci və ilkin formalı propilen sopolimerləri (**13,2 milyon ABŞ** dolları) üçüncü olub.



# 2024-CÜ İLİN YANVAR-FEVRAL AYLARI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI

(2023-cü ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)

2023 2024



# 2024-CÜ İLİN FEVRAL AYI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI

(2023-cü ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)



2023    2024



# 2024-CÜ İLİN FEVRAL AYI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI
(2023-cü ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)



# 2024-CÜ İLİN YANVAR-FEVRAL AYLARI ƏRZİNDƏ AQRAR VƏ AQRAR-SƏNAYE MƏHSULLARININ İXRACI

(2023-cü ilin müvafiq dövrü ilə müqayisədə, faizlə)

- Aqrar məhsullar
- Aqrar-sənaye məhsulları

2023/2024
+16,9%

145,9 mln $



2023/2024
+26,2%

109,3 mln $

36,6 mln $

2023/2024

# 2024-CÜ İLİN YANVAR-FEVRAL AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ 5 ƏSAS İXRAC ÖLKƏSİ

## (2023-cü ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)



# 2024-CÜ İLİN FEVRAL AYINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ 5 ƏSAS İXRAC ÖLKƏSİ

(2023-cü ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)



# 2024-CÜ İLİN YANVAR-FEVRAL AYLARINDA İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI

## (2023-cü ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2024 İXRAC İCMALI mart

| Mal | 2024 | 2023 |
|---|---|---|
| Elektrik enerjisi | 34,9 | 227,2 |
| Pambıq mahlıcı | 33,5 | 23,2 |
| Tomat (pomidor) | 30 | 19,1 |
| Xurma | 26,4 | 14,6 |
| Meşə fındığı | 22,4 | 23,3 |
| İlkin formalı propilen sopolimerləri | 22,1 | 13,1 |
| Karbamid | 20,9 | 18,2 |
| Alüminium ərintilərindən düzbucaqlı plitələr | 16 | 2,4 |
| Metanol (metil spirti) | 15,7 | 15,8 |

# 2024-CÜ İLİN YANVAR-FEVRAL AYLARINDA İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI

## (2023-cü ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)



| | 2024 | 2023 |
|---|---|---|
| Polimerləşmədə ilkin formalı maddələr | 13,8 | 12,4 |
| Alma | 12,1 | 10,2 |
| Minik avtomobilləri, mühərrikinin həcmi 2500 sm³-dən çox olan sıxılmaqdan alışan DYM-li (dizel) | 12,1 | 3,9 |
| Minik avtomobilləri, mühərrikinin həcmi 3000 sm³-dən çox olan qığılcımla alışan DYM-li | 9,7 | 2,2 |
| Xüsusi kütləsi 0,94 və ya daha çox olan ilkin formalı polietilen | 8,9 | 14,7 |
| Qızıl | 6,8 | 15,3 |
| Xüsusi kütləsi 0,94-dən az olan ilkin formalı polietilen | 6,1 | 10,7 |
| Sement klinkerləri | 5,9 | 4,3 |
| Digər yağlar və məhsullar | 5,8 | 4,1 |

# 2024-CÜ İLİN FEVRAL AYINDA İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI

(2023-cü ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

| Mal | 2024 | 2023 |
|---|---|---|
| Pambıq mahlıcı | 23 | 7,6 |
| Tomat (pomidor) | 13,4 | 8,5 |
| İlkin formalı propilen sopolimerləri | 13,2 | 7,8 |
| Meşə fındığı | 12,3 | 11,5 |
| Karbamid | 10,6 | 8,8 |
| Xurma | 9,3 | 3,8 |
| Metanol (metil spirti) | 8,4 | 7,3 |
| Alüminium ərintilərindən düzbucaqlı plitələr | 7,6 | 0,92 |
| Minik avtomobilləri, mühərrikinin həcmi 2500 $sm^3$-dən çox olan sıxılmaqdan alışan DYM-li (dizel) | 7,5 | 2,7 |

2

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

2024-cü ilin yanvar-fevral ayları üzrə hazırlanan qeyri-dövlət ixracatçı subyektlərin reytinqində ilk onluqda aşağıdakı şirkətlər təmsil olunurlar: “MKT İstehsalat Kommersiya” MMC, “My Fruit” MMC, “P-Aqro” MMC, Muradova Sahibə Səlimət qızı, “Soil Boons” MMC, “STP Global Cable” MMC, “Technopack” MMC, “Ümüd 059” MMC, “Mors Trading” MMC, “Gözəl Təbiət” MMC.

Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus olan şirkətlərin siyahısına isə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin “Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi” başçılıq edir. Daha sonra bu siyahıda aşağıdakı şirkətlər təmsil olunurlar: “Azərenerji” ATSC, “Socar Polymer” MMC, “Azəralüminium” MMC, “AzerGold” QSC, “Azərpambıq Aqrar Sənaye Kompleksi” MMC, “Azərbaycan Hava Yolları” QSC, Naxçıvan MR Dövlət Energetika Xidməti MMC, “Azərbaycan Dəmir Yolları” QSC, “İqlim Elmi-İstehsalat Müəssisəsi MMC”.

Bu ixracatçıların reytinqi ilə bağlı məlumatla təqdim olunan infoqrafikalardan tanış ola bilərsiniz.

2024 İXRAC İCMALI mart

# 2024-CÜ İLİN YANVAR-FEVRAL AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ QEYRİ-DÖVLƏT İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

## (ötən ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)



# 2024-CÜ İLİN YANVAR-FEVRAL AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ DÖVLƏTƏ MƏXSUS ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

(ötən ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2024 İXRAC İCMALI mart



# 3

# "AZƏRKOSMOS"A AİD XİDMƏT İXRACI HAQQINDA MƏLUMAT

## 2024-cü ilin yanvar-fevral aylarında Azərbaycan Respublikasının Kosmik Agentliyi ("Azərkosmos") **3 milyon ABŞ dolları** dəyərində telekommunikasiya xidməti ixrac etmişdir

Yeni nəsil xidmət ixracı hesab edilən peyk telekommunikasiya xidmətləri xidmət ixracının şaxələnməsi istiqamətində mühüm rola malikdir.

2024-cü ilin yanvar-fevral aylarında Azərbaycan Respublikasının Kosmik Agentliyi (Azərkosmos) tərəfindən dünyanın **45 ölkəsinə 3 milyon ABŞ dolları** dəyərində peyk telekommunikasiya xidmətləri ixrac edilib. "Azərkosmos" xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin 77 faizini təşkil edib. 2024-cü ilin fevral ayında isə "Azərkosmos" dünyanın **41 ölkəsinə 1,6 milyon ABŞ dolları** dəyərində xidmət ixrac edib.

2024-cü ilin yanvar-fevral ayları ərzində peyk telekommunikasiya xidmətlərinin ixracının ilk beşliyində isə **886,1 min ABŞ** dolları ilə Birləşmiş Krallıq, **650,3 min ABŞ** dolları ilə Lüksemburq, **219,1 min ABŞ** dolları ilə BƏƏ, **139,1 min ABŞ** dolları ilə Pakistan və **135,4 min ABŞ** dolları ilə Almaniya qərarlaşıb.

# 2024-CÜ İLİN YANVAR-FEVRAL AYINDA AZƏRBAYCAN RESPUBLİKASININ KOSMİK AGENTLİYİ (AZƏRKOSMOS) 3 MİLYON ABŞ DOLLARI DƏYƏRİNDƏ PEYK TELEKOMMUNİKASİYA XİDMƏTLƏRİ İXRAC ETMİŞDİR

2024
İXRAC İCMALI
mart



**AZERSKY**

Yerin məsafədən müşahidə peyki missiyasını 1 il daha tez, yəni fəaliyyətinin 9-cu ilində başa çatdırdığından optik peyk xidmətləri üzrə məlumatlar cədvəldən çıxarılıb.

## Xidmət ixrac etdiyi 5 əsas ölkə

| | |
|---|---|
| 886,1 min $ | Birləşmiş Krallıq |
| 650,3 min $ | Lüksemburq |
| 219,1 min $ | BƏƏ |
| 139,1 min $ | Pakistan |
| 135,4 min $ | Almaniya |

# 4

# QEYRİ-REZİDENTLƏR TƏRƏFİNDƏN APARILAN BANK ƏMƏLİYYATLARI HAQQINDA MƏLUMAT



## 2024-cü ilin yanvar-fevral ayları ərzində banklara məxsus ödəniş xidməti şəbəkəsində digər qeyri-rezident maliyyə institutlarının emissiya etdiyi ödəniş kartları ilə 372,2 milyon manatlıq əməliyyat aparılıb.

Koronovirus (COVID-19) pandemiyası ilə bağlı yaranmış vəziyyət digər ölkələrdə olduğu kimi, Azərbaycanın da turizm sektoruna təsirsiz ötüşməyib.

2024-cü ilin fevral ayında banklara məxsus ödəniş xidməti şəbəkəsində digər qeyri-rezident maliyyə institutlarının emissiya etdiyi ödəniş kartları ilə aparılan əməliyyatların həcmi **184,3 milyon** manat təşkil edib. 2024-cü ilin yanvar-fevral ayında isə banklara məxsus ödəniş xidməti şəbəkəsində digər qeyri-rezident maliyyə institutlarının emissiya etdiyi ödəniş kartları ilə aparılan əməliyyatların həcmi **372,2 milyon** manat təşkil edib.

Bu barədə daha ətraflı məlumat təqdim olunan infoqrafikada verilmişdir.

# BANKLARA MƏXSUS ÖDƏNİŞ XİDMƏTİ ŞƏBƏKƏSİNDƏ DİGƏR QEYRİ-REZİDENT MALİYYƏ İNSTİTUTLARININ EMİSSİYA ETDİYİ ÖDƏNİŞ KARTLARI İLƏ APARILAN ƏMƏLİYYATLAR (milyon manatla)

2024 İXRAC İCMALI mart

| | 2022 | 2023 | 2024 |
|---|---|---|---|
| Yanvar | 204,7 | 171,5 | 187,9 |
| Fevral | 186,5 | 162,3 | 184,3 |
| Mart | | | |
| Aprel | | | |
| May | | | |
| İyun | | | |
| İyul | | | |
| Avqust | | | |
| Sentyabr | | | |
| Oktyabr | | | |
| Noyabr | | | |
| Dekabr | | | |
| | 391,2 mln | 333,8 mln | 372,2 mln |

Mərkəzi Bankın təqdim etdiyi statistika əsasında

6

# "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİNDƏN QEYRİ-NEFT İXRACI HAQQINDA MƏLUMAT



## 2024-cü ilin mart ayı ərzində "Bir Pəncərə" İxraca Dəstək Mərkəzindən 25 milyon ABŞ dolları dəyərində qeyri-neft ixracı həyata keçirilmişdir

"Bir Pəncərə" İxraca Dəstək Mərkəzinə 2024-cü ilin mart ayı ərzində **144 müraciət** daxil olub. Müvafiq dövr ərzində **438 ədəd** sertifikat (232 ədəd mənşə, 198 ədəd fitosanitar, 2 ədəd baytarlıq, 6 ədəd CİTES) təqdim edilib.

2024-cü ilin mart ayı ərzində "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi vasitəsilə **25 milyon ABŞ dolları** dəyərində qeyri-neft ixracı həyata keçirilmişdir. Qeyd edilən dövr ərzində fiziki və hüquqi şəxslər tərəfindən qiymətli metalar, pambıq mahlıcı, pambıq çiyidi, pomidor, dondurma, pendir, kərə yağı, qənnadı məmulatları, limonad, nar, qarışıq şirələr, dondurulmuş Xəzər kilkəsi, akvakultur üsulu ilə yetişdirilmiş balıqların kürüsü, tibbi zəli, gilas tingi, su nasosu, klinker, ferrosilisium, polad boru, polad armatur yaymasının ixracı həyata keçirilib.

Yuxarıda adı çəkilən məhsullar arasında qiymətli metallar, pambıq mahlıcı, polad boru, süd məhsulları, meyvə şirələrinin ixracı üstünlük təşkil etmişdir. İxrac edilən ölkələr arasında İsveçrə, Gürcüstan, İtaliya, Rusiya, Türkiyə, Ukrayna, Türkmənistan, ABŞ, Avstriya, Kanada, Litva, Polşa, Qırğızıstan, Özbəkistan, Qazaxıstan, BƏƏ, Belarus üstünlük təşkil etmişdir.



# 2024-CÜ İLİN MART AYINDA "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ VASİTƏSİLƏ HƏYATA KEÇİRİLƏN İXRACIN STATİSTİKASI
(milyon ABŞ dolları ilə)

2024 İXRAC İCMALI mart



# “BİR PƏNCƏRƏ” İXRACA DƏSTƏK MƏRKƏZİ VASİTƏSİLƏ VERİLƏN SERTİFİKATLAR
(faizlə)

**53%** Mənşə sertifikatı

**45%** Fitosanitar sertifikatı

**1,5%** CİTES sertifikatı

**0,5%** Baytarlıq sertifikatı

## İQTİSADİ İSLAHATLARIN TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİNİN
## “BİR PƏNCƏRƏ” İXRACA DƏSTƏK MƏRKƏZİ

AZ 1073, Bakı ş., Yasamal r., Q. Xəlilov küç., 47
47, Khalilov str., Yasamal district, Baku
Баку, Ясамальский район, ул. Г. Халилова, 47

/BİR PƏNCƏRƏ İxraca Dəstək Mərkəzi




İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi
Center for Analysis of Economic Reforms and Communication
Центр Анализа Экономических Реформ и Коммуникаций

Azərbaycan Respublikasının
Ədliyyə Nazirliyi tərəfindən
“İxrac İcmalı” jurnalı
11 yanvar 2018-ci il tarixində
N4160 nömrəsi ilə mətbu nəşrlərin
reyestrinə daxil edilmişdir.

Bakı, Yasamal rayonu,
Q. Xəlilov küçəsi 47, AZ 1073
Tel.: (+ 994) 12 521 25 35
info@ereforms.gov.az

www.ereforms.gov.az

/iqtisadiislahat